

## 1652 Al-Mustafa Open University

| | |
|---|---|
| سرشناسه: | Rahimov, Afzaloddin - رحیم‌اف، افضل‌الدین |
| عنوان و نام پدیدآور: | Yəhudilik, Xristianlıq və İslam (Muqayisəli araşdırma)[Book]/ Müəllif Əfzələddin Rəhimli. |
| مشخصات نشر: | قم: مرکز بین‌المللی ترجمه و نشر المصطفی صلی‌الله‌علیه‌وآله، ۱۳۹۹=۲۰۲۰م. |
| مرجع تولید: | دانشگاه مجازی المصطفی صلی‌الله‌علیه‌وآله |
| مشخصات ظاهری: | ۳۰۴ ص. |
| شابک: | ۹۷۸-۶۰۰-۴۲۹-۷۱۸-۹ |
| وضعیت فهرست نویسی: | فیپا |
| یادداشت: | ترکی آذربایجانی. |
| موضوع: | اسلام و ادیان دیگر |
| موضوع: | Islam --Relations |
| موضوع: | اسلام و یهودیت |
| موضوع: | Islam --Relations --Judaism |
| موضوع: | اسلام و مسیحیت |
| موضوع: | Islam --Relations --Christianity |
| رده بندی کنگره: | BP۲۲۷ |
| رده بندی دیویی: | ۲۹۷/۴۷ |
| شماره کتابشناسی ملی: | ۶۱۰۸۷۱۴ |

BA۰۴۴۶

**Al-Mustafa International Publication and Translation Center Translation Center**

**Yəhudilik, Xristianlıq və İslam (Müqayisəli araşdırma)**
**Müəllif:** Əfzələddin Rəhimli
**Year of publication:** 1441AH/ 1399 Sh/ 2020
**Publisher:** Al-Mustafa International Translation and Publication Center
**Printing:** Al-Mustafa International Translation and Publication Center
**Print-run:** 500
**ISBN:** 978-600-429-718-9

**ادیان تطبیقی**

**مؤلف:** افضل‌الدین رحیم‌اف
**چاپ اول:** ۱۳۹۹ش / ۱۴۴۱ق / ۲۰۲۰م
● **چاپ:** مرکز بین‌المللی ترجمه و نشر المصطفی صلی‌الله‌علیه‌وآله ● **قیمت:** ۲۶۰۰۰۰ ریال ● **شمارگان:** ۵۰۰



© Al-Mustafa International Translation and Publication Center



●IRAN, Qom; Muallim avenue western , (Hujjatia).
Tel: +98 25 378 36 134 Tel-Fax: +98 25-37839305-9 (105)
●IRAN, Qom; Boulevard Muhammad Ameen, Y-track Salariyah. Tel: +98 25-32133106
pub_almustafa http://buy-pub.miu.ac.ir miup@pub.miu.ac.ir



● **مدیر انتشارات:** مصطفی نوبخت ● **ناظر گرافیک:** مسعود مهدوی
● **مدیر تولید:** جعفر قاسمی ابهری ● **ناظر چاپ:** نعمت‌الله یزدانی
● **ناظر فنی:** علی عبادی‌فرد ● **صفحه‌آرا:** سیدمحمدرضا جعفری

# Yəhudilik, Xristianlıq və İslam
## (Müqayisəli araşdırma)

Əfzələddin Rəhimli

Al-Mustafa International
Translation and Publication Center

**NAŞİRDƏN**

İslam və beynəlxalq əlaqələrin qloballaşdığı bir dövrdə, müsəlman alimlər yeni məsələlər və məsuliyyətlərlə üzləşməli oldular. Belə ki, bu gün ölkələrdə din və ənənəvi qaydalarla yaşamaq, öncələrə görə daha da çətinliklərlə üzləşdiyindən, günün tələblərinə uyğun, eyni zamanda İslam həqiqətlərinə əsasən, yeni araşdırmalara ehtiyac duyuldu. Təbii ki, hər bir sahədə dəqiq, hərtərəfli və təhriflərdən uzaq nizamlı tədqiqatın aparılması və bu sahədə güclü araşdırmaçıların yetişdirilməsi, hər zaman bütün haqsevənlərin diqqət mərkəzində olmuşdur. Lakin sivilizasiyaların toqquşduğu bir zamanda, elmi həqiqətlərə və mənəvi dəyərlərə önəm verən insanların, qərəzsiz və aydın biliklərə daha artıq maraq göstərməsi, vicdanlı araşdırmaçıların məsuliyyətini bir o qədər də artırdı.

Sözsüz ki, təhsil mərkəzlərinin inkişafı, dinamik, mütərəqqi və intizamlı təhsil sisteminə bağlıdır. Bu səbəbdən, təhsil və tədqiqat metodlarına yenidən baxış keçirmək və onları günün nəbzinə görə səliqə-sahmana salmaq, elmi tərəqqini sürətləndirməklə birgə, elmi mərkəzlərdə mütaliə və yeni araşdırmalar üçün şövq və stimul yaradır.

Beləliklə, “Beynəlxalq əl-Mustafa Universiteti” həqiqət və səadət yolunun tərəfdarı kimi, qeyri-iranlı tədqiqatçıların akademik araşdırmalarını himayə etməyi və onların elmi əsərlərini ərsəyə gətirməyi özünə ülvi bir hədəf olaraq təyin etmişdir.

# Mündəricat

**Müqəddimə ........................................................................................9**

**Birinci dərs: Yəhudi dinində Allah ........................................................13**
1. Allahın yeganəliyi ........................................................................14
2. Allahın ruzi verən olması ..............................................................15
3. Allahın maddi olmaması ...............................................................15
4. Allahın gözlə görülməməsi ............................................................16
5. Allahın məkansızlığı .....................................................................16
6. Allahın qüdrəti .............................................................................17
7. Allahın elmi .................................................................................18
8. Allahın həmişəyaşar olması ...........................................................18
9. Allahın nöqsansızlığı ....................................................................19
10. Allahın ədaləti ............................................................................19
11. Allahın rəhməti ...........................................................................20
12. Allahın cisim və insani xüsusiyyətlərə malik olması .......................20
13. Allahın elminin məhdud olması .....................................................21
14. Allahın kamil olmaması ...............................................................22
15. Allahın mütləq qüdrətə malik olmaması .........................................23
**Yəhudilikdə səlbi ilahiyyat anlayışı ....................................................25**

**İkinci dərs: Xristianlıqda Allah ..........................................................27**
1. İlahi tövhid ..................................................................................27
2. Mütləq elm ...................................................................................28
3. Gözəgörünməz ..............................................................................28
4. Mütləq qüdrət ...............................................................................28
5. Əbədilik və əzəlilik .......................................................................28
6. Ruzi bəxş edən olması ...................................................................28
7. İlahi ədalət ...................................................................................29
**Xristianlıqda Allahın varlığına dəlillər ................................................31**
1. Hərəkət dəlili ...............................................................................31

2. Səbəb-nəticə dəlili ....32
3. Zəruri və mümkün varlıqlar dəlili....32
4. Mənəvi duyğular dəlili....32
5. Hədəf dəlili ....33
**Xristianlıqda «üç üqnum» əqidəsi....33**
**Üçüncü dərs: İslam dinində Allah ....39**
1. Tövhide - zati:....45
2. Tövhide - sifati (sifətlərdə Tövhid):....45
3. Tövhide - əfali (fellərdə Tövhid): ....45
4. Tövhide - ibadi:....46
**Dördüncü dərs: Üçlük əqidəsinin səmavi kitablarla ziddiyyəti ....51**
**Beşinci dərs: Üçlük əqidəsinin qısa tarixi ....59**
**Altıncı dərs: Üç üqnum İslam baxışında....67**
**Yeddinci dərs: Yəhudi dinində peyğəmbərlik ....75**
1. Lut peyğəmbər(ə)....78
2. İbrahim peyğəmbər(ə) ....79
3. Yaqub peyğəmbər(ə) ....79
4. Davud peyğəmbər(ə) ....79
5. Əyyub peyğəmbər(ə) ....80
6. Süleyman peyğəmbər(ə)....80
7. Harun peyğəmbər(ə)....81
**Səkkizinci dərs: Əhdi-ətiqdə vəhy ....83**
1. Xəbər vermək....86
2. Allahın peyğəmbərə toxunması ilə vəhyini çatdırması....86
**Doqquzuncu dərs: Xristianlıqda peyğəmbərlik....89**
**Onuncu dərs: Xristianlıqda peyğəmbərlik....95**
**On birinci dərs: İslamda vəhy və peyğəmbərlik....107**
1. İslamda vəhy....107
2. Qurani-kərimdə peyğəmbərlərə nazil olan vəhyin növləri ....108
3. Peyğəmbərlərin göndərilməsinin fəlsəfəsi....108
4. Peyğəmbərlərin(ə) göndərilməsinin faydaları....109
5. Peyğəmbərləri tanımağın yolu....111
**On ikinci dərs: İslamda peyğəmbərliyin şərtləri....113**
1. Peyğəmbərlər ömür boyu məsumdurlar....113
2. Peyğəmbərlər itaətkar bəndələrdir....114
3. Möcüzələr və elmi-qeybə olan agahlıq....115
4. Bütün peyğəmbərlər Allaha doğru dəvət etmişlər ....115
5. Xatəmiyyət....115

**On üçüncü dərs: Qurani-kərimdə peyğəmbərlərin təsviri ........................117**
1. Lut peyğəmbər(ə)............................................................................118
2. İbrahim peyğəmbər(ə) ......................................................................118
3. Yaqub peyğəmbər(ə) ........................................................................120
4. Davud peyğəmbər(ə) ........................................................................121
5. Əyyub peyğəmbər(ə) ........................................................................122
6. Süleyman peyğəmbər(ə) ..................................................................123
7. Harun ...............................................................................................123

**On dördüncü dərs: İncildə məsumluq və gələcək peyğəmbər haqda xəbərlər.127**

**On beşinci dərs: Təsəlliverici barədə tədqiq (İslam baxımından) .............143**

**On altıncı dərs: Yəhudilikdə Qiyamət günü ................................................149**

**On yeddinci dərs: Yəhudilikdə axirət aləmi ................................................155**
Ölülərin dirilməsi.................................................................................155
Cəhənnəm ...........................................................................................160
Cənnət (Ədən bağı)..............................................................................160

**On səkkizinci dərs: Xristianlıqda Qiyamət günü və axirət aləmi ..............161**
İsanın ikinci gəlişinin əlamətləri...........................................................161
İsanın ikinci gəlişi.................................................................................161
Ölülərin dirilməsi.................................................................................163
Minillik padşahlıq................................................................................165
Xristianlıqda Cənnət və Cəhənnəm ......................................................169

**On doqquzuncu dərs: İslamda axirət aləmi.................................................173**
1. Məadsız həyatın mənasız olması .......................................................173
2. Məadın sübut və dəlilləri ...................................................................174
3. Cismani məad ...................................................................................175
4. Ölümdən sonrakı aləm.......................................................................176
5. Məad və əməl kağızlarımız.................................................................176
6. Əməlləri müşahidə etmək və onların Qiyamət günü verdiyi şəhadət.......177
7. Sirat körpüsü və əməl tərəzisi.............................................................177
8. Qiyamət günü «şəfaət» məsələsi..........................................................178
9. Bərzəx aləmi .....................................................................................179
10. Mənəvi və maddi mükafatlar ............................................................180

**İyirminci dərs: Yəhudi və xristian dinində qurtuluş yolu ..........................185**
1. Yəhudilikdə qurtuluş və nicat.............................................................185
2. Xristianlıqda qurtuluş və nicat............................................................187

**İyirmi birinci dərs: Xristianlıqda fəda inancı..............................................195**

**İyirmi ikinci dərs: İslam dini və qurtuluş məsələsi ....................................209**

**İyirmi üçüncü dərs: Yəhudilikdə və xristianlıqda qadın............................219**

Yəhudi dinində qadın ........ 219
Qadın, elm, ibadət və ruhani rəhbər ........ 223
Xristian dinində qadın ........ 226
Qadınlar və dini rəhbərlik ........ 228

**İyirmi dördüncü dərs: Yəhudi dinində ailə quruluşu ........ 231**

**İyirmi beşinci dərs: Xristianlıqda ailə quruluşu ........ 239**
Müqəddəs qadın rahiblər ........ 241
Tövbəkar qadınlar və müqəddəslik ........ 244
Talaq ........ 246

**İyirmi altıncı dərs: İslamda qadın və evlilik ........ 249**
Ailə qurmaq ........ 251
Ailə qurmaqda məqsəd ........ 251
1. Mənəvi rahatlıq ........ 252
2. Davranışların tənzimlənməsi ........ 255
3. İctimai quruluşun tənzimlənməsi ........ 255

**İyirmi yeddinci dərs: Yəhudilik və xristianlıqda ailə əxlaqı ........ 259**
Yəhudilikdə ailə əxalqı ........ 259
Qadın və iffət ........ 264
Qadınına böhtan atanın cəzası ........ 265

**İyirmi səkkizinci dərs: İslamda ailə əxlaqı ........ 271**
İslamda möhkəm ailə təməllərinin səbəbləri ........ 271
A) Kişi və qadının ən zəruri vəzifələri ........ 272
B) Kişinin ailədə vəzifəlləri ........ 278
C) Qadının ailədə vəzifələri ........ 279
Ailənnin dağılma səbəbləri ........ 281
A) Ümumi təhlükələr ........ 281
B) Kişinin yaratdığı problemlər ........ 283
C) Qadının yaratdığı problemlər ........ 287

**İyirmi doqquzuncu dərs: Yəhudi, xristian və islam dinində monaxizm ........ 293**
Monaxizm yəhudilikdə ........ 293

**İstifadə olunmuş mənbələr ........ 301**

# Müqəddimə

Dini inanclar, insan təfəkküründəki ehtişam dolu əsrarəngiz ülvi duyğulardır. Onun yaşam tərzi və dünyaya baxışındakı ilahi məqamları tənzimləyən və mənəvi boşluqlarını dolduran səmavi hisslərdir. Məhz Allahın bəşər övladını yaratmasıdan məqsədi də, elə insanın yüksək səciyyəli əxlaqi-ilahi duyğularla öz həyatını sürdürüb, ali mənəvi məqamlara ucalmasıdır.

Bu, elə bir pak ilahi hisslərdir ki, zülm, nifrət, kin, təfriqə, hərc-mərclik, təəssübkeşlik, təcavüz, dözümsüzlük, qəddarlıq, cəhalət və mövhumatla heç bir formada uzlaşmır. Dini inanc və duyğuların bünövrə və təməl prinsipləri sevgi, şəfqət, mərhəmət, dostluq, səbir, yardımlaşma, güzəşt etmək, uzlaşma, vəhdət, həmrəylik kimi humanist ideyalardan təşkil tapmışdır. Çünki ilahi və pak duyğuların mayası dünyaya sülh və əmin-amanlıq bəxş etməkdir. Həyatı gözəlləşdirib, bu dünyanı da, axirəti də cənnətə çevirməkdir. Zorakılıq və təziqdən uzaq şəkildə, cənnət qoxulu pak qəlblər, saleh əməllər ilə Allah sevgisini insanlara aşılamaqdır. Necə ki, Qurani-kərimdə buyurulur: ***"Dində məcburiyyət (zorakılıq) yoxdur."*** Bəqərə\256

Dinin əsas meyarı sevgi, vəhdət və birlikdir. Könüllərin, mənəvi duyğuların həmrəyliyidir. Hansı səbəblə olursa-olsun təfriqə və münaqişə salıb, hərc-mərcliyə çəkmək ilahi hədəflərlə uzlaşmır. Müqəddəs kitabımızda iman gətirdikdən sonra buzovpərəstliyə yönələn tayfanın qarşısında dayanan, onları təkallahlığa çağıran Hz. Harunun(ə) məhz təfriqə salmamaq üçün tayfanı tərk etməməsi və onlarla münaqişəyə girməməsi yazılır. Belə ki, Hz. Musanın(ə) ona

hiddətlənərək: ***(Mö'minləri də götürüb) arxamca gəlmədin? (Mənə bu barədə heç bir xəbər vermədin, yaxud mənim yolumla gedərək bütə tapınanları danlayıb onlara qarşı hiddətlənmədin?) Əmrimə asimi oldun? (Allahdan başqasına ibadət edənlərlə bir yerdə yaşamağı özünə nə cür rəva bildin?) "***-deyə buyurmasının cavabında, Hz. Harun(ə) deyir: ***"Ey anam oğlu! Saçımdan, saqqalımdan tutma. Doğrusu, sənin: "İsrail oğulları arasına ayrılıq, təfriqə saldın, sözümə baxmadın! " - deyəcəyindən qorxdum.*** Taha\93 - 94

Qurani-kərim daim dinindən, millətindən asılı olmayaraq, insanları birliyə və ortaq məxrəclərdə həmrəy olmağa, müştərək dəyərlər üzərində birləşməyə dəvət edir. Ali-İmran\64

Diqqət etmək lazımdır ki, yəhudilik, xristianlıq və islam dinlərinin çoxsaylı müştərək mənəvi dəyərləri mövcuddur. Bu ilahi dəyərlər, onların belə ortaq mövqelərə əsaslanaraq, həmrəy olmaları üçün kifayətdir. Hər üç dinə görə gözəl əxlaq, qətl, zülm, oğurluq, yer üzündə fitnə-fəsad törətmək, özbaşınalıq, təcavüz, başqalarının hüquqlarını tapdamaq, kin bəsləmək və sair kimi pis əməllər sərt tənqid olunub və yolverilməzdir. Hər üç din, Allah sevgisi, insanlara məhəbbət bəsləmək, şəfqət göstərmək, mərhəmət etmək, ədalətlə davranmaq, yardımlaşmaq, laqeyd qalmamaq, dostluq, əmin-amanlıq içində yaşamaq, səbirli olmaq, güzəştə getmək, təvazökalıq göstərmək, hətta insanlar üçün fədakarlıq və isar etməyə əsaslı şəkildə təkid edilir.

Belə müştərək dəyərlərdən uzaqlaşıb, təfriqəyə düşüb, münaqişələrə girişmək isə şiddətlə pislənilib: "Yəhudilər: "Xaçpərəstlər heç bir şeyə əsaslanmırlar! "– deyir, xaçpərəstlər isə: "Yəhudilər heç bir şeyə əsaslanmırlar! "– deyirlər. Halbuki onlar Kitab oxuyandırlar. Cahillər də onların danışdığı kimi danışırlar. Allah ixtilafa düşdükləri şey barəsində Qiyamət günü onların arasında hökm verəcəkdir." Bəqərə\113

Ayədə göründüyü kimi, eyni səmavi kitabları oxuyan iki dinin (xristian və yəhudi dininin) davamçılarının belə mübahisələrə qoşulması, bir-birilərini qəbul etməmələri, ortaq dəyərlər üzərində müştərək mövqe tutmaq əvəzinə, münaqişəyə düşmələri şiddətlə tənqid edilir.

Hazırda sizə təqdim edilən bu kitab, bir universitet dərsliyi olaraq, magistr tələbələri üçün hazırlanmış, yəhudilik, xristianlıq və islam dininin qarşılıqlı müqayisəsi əsasındakı araşdırılmadır. Belə ki, ali savadlı dini təhsil alan təbəqənin, dinlərin sahib olduğu görüşlərə yaxından yiyələnməsi və sırf elmi mütaliyə üçün nəzərdə tutulmuşdur. Kitabda sadəcə, dinlərin müştərək və fərqli cəhətləri ortaya qoyulur, qərəzli olaraq hansısa bir dinə və inanca mövqe göstərilmir. Belə mövzular haqda sırf elmi mərkəzlərdə, alim və ali savadlı şəxslərin tam sağlam dialoqu əsasında bəhs açılmalıdır. Hissiyyat və emosiyalara qapılaraq, mənəviyyatdan uzaq duyğular olan "üstələmək", "haqlı olduğunu sübut etmək", "qələbə çalmaq" hissi ilə ictimai məkanlarda deyil.

Unutmayaq ki, elm-savad sahibləri fərqliliklər üzərində dayanmamalıdır və yaxud emossiyaları qızışdırmalıdır, əksinə onların əsl vəzifəsi, dərin biliyə yiyələnib insanları ortaq nöqtələrdə birləşdirməkdir. Araşdırmalar nəticəsində əldə etdikləri fürsətləri dəyərləndirib, insanları bir-birinə daha da yaxınlaşdırmaqdır. Könüllərə kin və iztirab deyil, sevgi və aramlıq bəxş etməkdir. Çünki, qəlblərin həmrəyliyi və onların ülfəti həyatverici amildir. Qəlbində Allah sevgisi olan əsl mömin isə həyat bəxş edər, əmin-amanlıq gətirər. Müqəddəs Kitabımızda buyurulduğu kimi, «Hər kəs kimsəni diriltsə bütün insanlara həyatbəxş etmiş kimidir.» Maidə\32

***Dr. Əfzələddin Rəhimli***